# Kütləvi məzarlıqlar erməni faşizminin nə qədər təhlükəli olduğundan xəbər verir



***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 4-də İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul edərkən, Birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı daha sonra Azərbaycanın humanitar xarakter daşıyan bu məsələ ilə bağlı dəfələrlə işğalçı ölkəyə müraciət etməsinə baxmayaraq, qəsbkarın konstruktiv əməkdaşlıq və xoş niyyət nümayiş etdirmədiyini xatırladıb.***

Prezident İlham Əliyev bu yaxınlarda Xocavəndin Edilli kəndində kütləvi məzarlığın müəyyənləşdirildiyini, orada qazıntı işləri aparılaraq basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini vurğulayıb. Ölkə rəhbəri, həmçinin itkin düşmüş şəxslərin taleyinin daim dövlətin gündəliyində olduğunu, bunun Avropa İttifaqı və digər beynəlxalq təsisatlarla da müzakirə edildiyini bildirib.

Azərbaycanda bu sahədə texniki imkanların genişləndirildiyini qeyd edən ölkə rəhbəri respublikamızda yeni modul laboratoriyaların qurulduğunu, xüsusi dron uçuş aparatlarının və digər ləvazimatların alındığını, cəlb olunan mütəxəssislərin peşə qabiliyyətlərinin artırıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın təcrübəsinin və imkanlarının respublikamız üçün zəruri önəm daşıdığını, bu komissiyanın dünyanın müxtəlif ölkələrində uğurla fəaliyyət göstərdiyini qeyd edib.

Prezident İlham Əliyev aprelin 4-də Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən də, bu barədə fikirlərini tarixə Xocalı soyqırımı kimi həkk olunan qanlı faciədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülüb, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilib. Xocalı soyqırımından sonra şəhər dağıdılıb, mülki əhalinin isə daşınar əmlakı talan olunub.

Vətən savaşında əldə edilən qələbə ilə azad olunan torpaqlarımızda Birinci Qarabağ müharibəsində törədilmiş silsilə qətllər, qırğınlar, soyqırımlar bu gün üzə çıxarılan kütləvi məzarlıqlarla aşkarlanır. Bu, həm də ermənilərin azərbaycanlılara qarşı bəslədiyi maniakal patoloji hisslərin nə qədər dəhşətli olduğundan xəbər verir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 2022-ci il yanvarın 1-nə olan məlumata əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyata alınan 3890 nəfərdən 3171-i hərbçi, 719-u mülki şəxsdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı adamdır. Ermənistan bu şəxslərin saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədərək, onların sonrakı taleyi barədə indiyə kimi məlumat vermir.

Yeri gəlmişkən, Azərbaycanın yaşayış məntəqələri işğal edilərkən, Ermənistan silahlı qüvvələrinin və terrorçu birləşmələrin əsas məqsədi daha çox mülki əhali olub. Bu, əsir-girovluqdan azad olunmuş şəxslərlə bağlı statistik məlumatlarda da öz təsdiqini tapıb.

Ekspertlərin sözlərinə görə, Ermənistan tərəfindən də qəbul edilən həm III, həm də IV Cenevrə skeleti tapılıb.

Aşkarlanan qalıqların Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi və eyniadlı kənd uğrunda gedən döyüşlərdə şəhid olan şəxslərə aidliyi güman edilir. Bu, eyni zamanda, bundan sonra da üzə çıxacağı şübhə doğurmayan digər kütləvi məzarlıqlar ermənilərin Qarabağda həyata keçirdiyi cinayətkar fəaliyyətlərinin göstəricisidir. Bütün bu fəaliyyətlər beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmaqla yanaşı, ermənilərin müharibə cinayəti hesab edilir.

Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında, nüfuzlu beynəlxalq təşkilatların tədbirlərində, xarici ölkə rəhbərləri ilə söhbətlərində Ermənistan tərəfindən törədilən bu vəhşiliyi diqqətə çatdıraraq, düşmənin əsir və itkin düşən, girov götürülən insanların taleyini gizlətdiyini və işğalçının kütləvi məzarlıqların xəritəsini verməməsini xüsusi qabardıb.

Ermənilər tərəfindən azərbaycanlıların soyqırımı təkcə Birinci Qarabağ müharibəsi dövrünə təsadüf etməyib. Düşmən xalqımıza qarşı bu vəhşiliyi iki yüz il ərzində zaman-zaman yaşadıb.

Tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirilib. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilib. Bu kütləvi qırğın günlərində Bakı şəhərində, habelə paytaxt quberniyasına daxil olan digər şəhər və



bölüşüb. Dövlətimizin başçısı Birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən çoxsayda soydaşımızın itkin düşdüyünü xatırladaraq, onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğulayıb.

Ermənistan tərəfindən Birinci Qarabağ müharibəsi dövründə törədilən vəhşiliyin – çox sayda soydaşımızın işgəncələrlə öldürülərək kütləvi məzarlıqlarda basdırıldığı 30 ilə yaxın müddətdə işğal altındakı tarixi torpaqlarımız azad olunduqdan sonra üzə çıxıb. Azərbaycan Respublikası Hərbi Prokurorluğu Dövlət Təhlükəsizliyi Xidməti, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Beynəlxalq Qızıl Xaç Komitəsi və digər müvafiq qurumların nümayəndələri ilə birlikdə Şuşa rayonunun Daşaltı, Xocavəndin Edilli, Ağdamın Sırxavənd, eləcə də Xocalı rayonunun Fərrux kəndləri və digər ərazilərdə aparılan müvafiq axtarış tədbirləri nəticəsində aşkarlanan kütləvi məzarlıqlardan Birinci Ermənistan-Azərbaycan müharibəsi dövründə itkin düşən şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi və molekulyar-genetik ekspertizaları aparılaraq, icraya yönəldilib, habelə digər zəruri hərəkətlər yerinə yetirilib.

Birinci Qarabağ savaşı dövründə ermənilər tərəfindən azərbaycanlıların kütləvi qətliamı həyata keçirilib. Təkcə konvensiyalarının 3-cü maddəsi mülki əhalinin girov götürülməsini qadağan edir. Amma faktlar işğalçının münaqişə dövründə bu prinsipi qəsdən pozduğunu, mülki əhalini məqsədyönlü olaraq girov götürərək uzun müddət saxladığını göstərir.

Qeyd edək ki, 1102 mülki soydaşımız uzun müddət girovluqda ağır işgəncələr altında, qeyri-insani şəraitdə saxlanıldıqdan sonra Azərbaycan tərəfinin çoxsaylı tələbi və aparılmış zəruri tədbirlər nəticəsində azad olunub. Təsadüfi deyil ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatlarına əsasən, girov götürülmüş xeyli sayda vətəndaşımız ağır işgəncələrlə həyatdan məhrum edilib.

Bu ilin fevralında Edilli kəndinin ərazisində ilkin qazıntı zamanı 6-7 nəfərə aid meyit qalığı aşkarlanıb. Eyni zamanda, müəyyənləşdirilən meyit qalıqlarının kütləvi dəfn edilən şəxslərin bir hissəsinə aid olduğu təsdiqlənib. Hadisə şahidlərinin məlumatına görə, hərbi yük maşınında Edilli kəndinə gətirilən onlarla Azərbaycan hərbçisinə və yaşayış məntəqələrinin işğalı zamanı qətlə yetirilən mülki şəxslərə aid meyitlər azərbaycanlı əsir-girovların iştirakı ilə kütləvi məzarlıqlarda basdırılıb.

Cari il martın 28-də isə Azərbaycan Ordusunun hərbçiləri tərəfindən Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri aparılarkən insan qalıqları aşkar olunub. Bir gün sonra isə kəndin ətrafında ayrı-ayrı yerlərdə aparılan qazıntılar zamanı daha bir neçə insan qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, dinc sakinlər işgəncələrə məruz qalıb. Yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə bir edilib.

1918-ci ilin məlum soyqırımı Bakı ilə yanaşı, Şamaxı, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər bölgələrdə də törədilib. Tədqiqatçıların araşdırmalarına əsasən, erməni cinayətkarları tərəfindən Şamaxı şəhərində təqribən14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

1918-ci ildə Qubanın müsəlman əhalisi də erməni faşizminin soyqırımına məruz qalıb. Bu, 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı aşkar edilən kütləvi məzarlıqla sübuta yetirilib. Yeri gəlmişkən, bu tarixi həqiqətin dünya ictimaiyyətinə çatdırılması, xalqımızın gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılması məqsədilə 2009-cu il dekabrın 30-da müvafiq sərəncam imzalayıb. Abidə-muzeyin ekspozisiyasında 1918-ci ilin mart-iyul aylarında Bakı quberniyasının 5 qəzasında – Bakı, Şamaxı, Quba, Cavad və Göyçayda müsəlman əhalinin soyqırımı tarixi də öz ifadəsini tapıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***